# Bakı Enerji Həftəsi bütün iştirakçılar üçün faydalı olacaq

**"Bakı Enerji Həftəsi Azərbaycanın enerji potensialının təqdim edilməsi ilə yanaşı, bu sahədə əməkdaşlığın gücləndirilməsi və ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Dünyanın aparıcı şirkətlərinin, müxtəlif dövlət və hökumət rəsmilərinin enerji məsələləri ilə bağlı müzakirəsinə imkan yaradan bu platforma yüksək statusa malikdir. Bakı Enerji Həftəsi həm də Azərbaycanı dünyaya qlobal işgüzar tədbirlərin təşkil edildiyi mərkəz kimi tanıdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Bakı Enerji Həftəsi regionun enerji sahəsində mühüm hadisəsi hesab edilir: "Özündə 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi - "CaspianOil&Gas", 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi - "Caspian Power" və 29-cu Bakı Enerji Forumu. "CaspianOil&Gas" və "Caspian Power" sərgiləri kimi 3 vacib tədbiri birləşdirən Bakı Enerji Həftəsi xüsusi əhəmiyyət kəsb edir. Dünyanın enerji sənayesinin liderlərini bir araya toplaması, xüsusilə də açılış mərasimində Prezident İlham Əliyevin iştirakı Bakı Enerji Həftəsinin əhəmiyyətliliyini təsdiq edir".

Deputat qeyd edib ki, bu işgüzar tədbir nəticə etibarilə enerji sahəsində dövlət-özəl əməkdaşlığını gücləndirəcək, yeni ideyaların müzakirəsinə imkan yaradacaq: "Həmçinin enerji sahəsində real və perspektivə hesablanan növbəti addımların atılması da mümkün olacaq. Bununla yanaşı, innovasiya və texnologiyaların təqdimatı baxımından da Bakı Enerji Həftəsi faydalı hesab edilməlidir. Nəzərə almaq lazımdır ki, günümüzün ən vacib məqamlarından biri innovativ dəyişikliklərdir. Bu baxımdan Bakıda keçirilən tədbir həm də şirkətlər tərəfindən yeni innovasiyaların təqdim edilməsi və bu sahədə Dördüncü Sənaye İnqilabının nəticələrinin müzakirəsi istiqamətində mühüm töhfə olacaq".

Vüqar Bayramovun sözlərinə görə, bu platforma Azərbaycanın enerji sahəsindəki potensialını nümayiş etdirməsinə də şərait yaradır: "Dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələrin və təşkilatların cəlb edildiyi Bakı Enerji Həftəsi həm də ökəmizin enerji sahəsindəki üstünlüyünün bir növ təqdimatıdır. İqlim dəyişmələrinin yaratdığı fəsadlar, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular da Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərdə müzakirə ediləcək. Beləliklə, bu regional və qlobal tədbirdən ölkəmiz, eləcə də iştirakçılar faydalana biləcəklər".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-5 iyun (№ 117).- S.10.